**Bakı Xəbər**. - 2022. - 17 noyabr. - № 209. - S. 13.

# Xristian icmamız erməni kilsəsinin fitnələrinə qarşı Azərbaycan Tolerantlığının fəal daşıyıcısı kimi...

**İradə Sarıyeva**

**Uzun illərdir ki, erməni Qriqoryan kilsəsi Azərbaycana qarşı terror siyasəti həyata keçirir. Hətta bəzi ekspertlər vurğulayırlar ki, erməni Qriqoryan kilsəsinin anti-Azərbaycan qərarları Ermənistan dövlətinin qəbul etdiyi qərarlardan daha sərt olub.**

Bu da onu göstərir ki, bizə qarşı erməni revanşizminin başında dayanan, separatizmin "ilham qaynağı" olan Qriqoryan kilsəsi çox iyrənc müharibə aparır. Təbii ki, bu, din adamlarına yaraşmayan bir tərzdir ki, uzun illərdir erməni din xadimləri, dindarları bizə qarşı yürüdür. Əlbəttə, burada II Qareginin "fəaliyyətini" xüsusi vurğulamaq lazımdır.

Dini tolerantlığın, multikulturalizmin beşiklərindən biri olan Azərbaycana qarşı monoetnik dövlət olan Ermənistanın kilsə rəhbərliyinin açdığı müharibə dünyanı düşündürməli, dünya xristianlarını hərəkətə gətirməlidir. Azərbaycanda da çox güclü xristian icması mövcuddur və ölkəmizin xristian icmasının Qriqoryan kilsəsinin cavabını verməsi mütləqdir.

Qeyd etdiyimiz kimi, ölkəmiz çoxmillətli, çoxmədəniyyətlidir. Azərbaycanın xristian icması erməni kilsəsinin anti-Azərbaycan siyasətinə, revsnşizmə, separatizmə dəstək verən əməlləri ilə bağlı dünyadakı xristian icmalarına, dini mərkəzlərə böyük müraciətlər etməlidir.

## "Ölkəmizin xristian icmaları erməni Qriqoryan kilsəsinin əməllərini ifşa edən bəyanatlar verməlidir"

Milli Cəbhə Partiyasının (MCP) sədr müavini, tanınmış ilahiyyatçı Tural İrfan "Bakı-Xəbər"ə şərhində bildirdi ki, ölkəmizdə bir yox, bir neçə xristian icması var. "Xristian icmalarının erməni kilsəsinin çirkin oyunlarına etirazını ifadə edən ayrıca bəyanatlarını görməmişəm. Amma bir neçə dəfə Azərbaycandakı dini konfessiyaların rəhbərləri Qarabağda erməni vandallar tərəfindən dağıdılan və zərər vurulan dini abidələrimizlə bağlı birgə bəyanat veriblər. Bu hal bir neçə dəfə təkrar edilib. Amma ölkəmizin xristian icmaları erməni Qriqoryan kilsəsinin əməllərini ifşa edən bəyanatlar verməlidir. Bu arzuediləndir. Bu xristian icmaları bütün mənalarda Azərbaycan dövlətinin maraqlarını müdafiə etməlidirlər. Erməni vandalizmi nəticəsində dağıdılan xristian və müsəlman abidələri ilə bağlı xristian icması nəinki indi, hətta 30 il əvvəl də bəyanatlar verməli idi. Ümumiyyətlə, xristian icması bu məsələni beynəlxalq səviyyədə qabartmalı, işıqlandırmalı idilər. Çünki Ermənistan terroru nəticəsində dağıdılan kilsələr birbaşa həmin icmalarlın mənsub olduğu dinə məxsus olan böyük xristian kilsələridir. Çox təəssüf olsun ki, bu baş verməyib. Bu da səbəbsiz deyil. Bu icmaların özləri də özbaşına deyil, bunlara nəzarət edən, bunları hərəkətə gətirən bizim dini idarələrimiz var. Yəni əvvəllər kifayət qədər bu məsələlərdə olan nöqsanları tənqid etmişik…Məlumdur ki, o din idarələrinin bəzilərinin özləri heç bəyanatlar verməyiblər, heç onlar İranın apardığı mənfur siyasətə dünənə qədər münasibət bildirməmişdilər, o ki qala xristian icmalarını hərəkətə gətirsinlər. Çox təəssüf ki, bizim din idarələrimiz demək olar ki, işləmir. Onlar ölkədəki xristian icmalarını bir yerə yığmalıdır, onlara məsələni anlatmalıdır. Yalnız bəyanatla iş bitmir, dini idarələrimiz nəinki ölkə daxilindəki xristian icmalarını, hətta xaricədki xristianları, xristian dünyasını, Roma katolik kilsəsini hərəkətə gətirib onları inandırmalıdır.

Görünən budur ki, heç bunlar ölkə daxilindəki xristianları hərəkətə gətirə bilmirlər, o ki qala gedib Vatikanda, başqa xristian aləmində bizim başımıza gələnləri yaysınlar".

T.İrfan vurğuladı ki, bütövlükdə ölkəmizin xristian icması erməni vandalizmi ilə barışmır və buna çox böyük təəssüf hissi ilə yanaşır. Ekspertin qeyd etdiyinə görə, indiyə qədər Azərbaycandakı müsəlman, pravoslav, alban-udi və yəhudi dini konfessiyalarının rəhbərləri erməni vandalizmi ilə bağlı birgə xarici ölkələrin dövlət və hökumət başçılarına, beynəlxalq təşkilatların rəhbərlərinə, dini liderlərə və dünya ictimaiyyətinə müraciət ediblər, amma gərəkdir ki, bu müraciətin əsas hədəfi erməni kiləsini ifşa etmək olsun. "Hesab edirəm ki, bu gün xristian icmasına deyilsəydi onlar mütləq şəkildə erməni Qriqoryan kiləsinin çirkin əməlləri ilə bağlı bəyanatlar yayardılar. Tutaq ki, hansısa təşkilatın bir dəfə bəyanat verməsi üçün məsələ bitmir, bu davamlı xarakter daşımalıdır. Azərbaycandakı xristian icmasının da terrprçu erməni kilsəsinə qarşı mübarizə aparması bir zərurətdir, çünki onların xristian dünyasına səsləri daha tez çata bilər. Düşünmürəm ki, onlara deyilsə, onlar bundan imtina edərdilər. Ölkəmizdə alban-udi icması var ki, onlar

mütamadi olaraq qədim alban kilsələrinə, Xudavəng və başqa məbədlərə gedirlər, onları ziyarət edirlər. Onlar o məbədləri unutmurlar, işaldan azad edildikdən sonra ora gedirlər. Əlbəttə, bu icma da böyük bir bəyanat verə bilər. Dinin siyasətə qarışması bir qədər həssas olduğu üçün bu icmalara gərək tövsiyə olunsun. Bizim dini idarələr tərəfindən bircə kəlmə icma sədrinə deyilsə, onlar erməni kilsəsinin əməlləri ilə bağlı ayrıca bəyanat hazırlayıb Roma Papasına, eləcə də dünyada olan digər nüfuzlu kilsələrə, kilsə rəhbərlərinə göndərə bilərlər"-deyə T.İrfan bildirdi.

**"…Dini icmalar Ermənistana və erməni kilsəsinə qarşı səsini qaldırmalıdır"**

Bu məsələdə dini idarələr, dini icmalar aktivlik göstərməli olduğunu deyən T.İrfan hesab edir ki, dini rəhbərlər dövlətlə bağlı məsələdə kənarda qala bilməz. Fransa senatının qəbul etdiyi bədnam qətnaməyə bu gün din xadimlərinin kəskin bəyanat verməli olduğunu deyən T.İrfan hesab edir ki, bu məsələdə ilk növbədə xristian udi icması daha aktiv olmalıdır. "Bizdə Alban-Udi icması var, mərkəzləri də Qəbələnin Nic kəndidir. Bu kilsələr alban kilsələridir, bu baxımdan udilər səsini çıxarmalıdır. Bu gün onlar bəyanatlar verməli, hərəkətə gəlməlidir. Mütləq vacibdir ki, Azərbaycandakı yəhudi, pravoslav, katolik, udi, krişna, bəhai və başqa dini icmalar Ermənistana və erməni kilsəsinə qarşı səsini qaldırsın. Ölkəmizdə bu qədər dini icma var. Hamısının səsi gəlməlidir. Din dünyada sülhü, əmin-amanlığı, saflığı, məhəbbəti təbliğ edən bir sistemdir. Bu Allah tərəfindən bəşəriyyətə verilib. Belə gündə də din özünü göstərməyəksə, o hansı gündə lazımdır. Din adamları hərəkətə ekçməlidir. Erməni Qriqoryan kilsəsi qana, müharibəyə, revanşizmə yol açan davranış nümayiş etdirir. Buna qarşı gedilməlidir. Ölkəmizin dini icmalarını bir yerə dini idarələr yığmalıdır və onlara tövsiyə verməlidir"-deyə T.İrfan vurğuladı.